*Azərbaycan Respublikasının*
*əmək və əhalinin sosial*
*müdafiəsi nazirinin*
*“___”_________2022-ci il*
*tarixli_________nömrəli*
*əmri ilə təsdiq edilmişdir.*

# Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparatının Sosial təminat siyasəti Şöbəsinin Əsasnaməsi

## I. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin (bundan sonra - Nazirlik) Aparatının struktur bölməsi olan Sosial təminat siyasəti Şöbəsi (bundan sonra - Şöbə) bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində aztəminatlı ailələrə dövlət sosial yardımı, sosial müavinət, müxtəlif növ Prezident təqaüdləri, özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc əvəzində aylıq müavinət, çətin həyat şəraitində yaşayan şəxslərə (ailələrə) dövlət sosial xidməti, şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial təminat hüquqlarının təmin edilməsi və başqa növ sosial təminat məsələləri ilə bağlı siyasəti həyata keçirir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında" Qanununu və digər qanunlarını, "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi haqqında Əsasnamə"ni və Azərbaycan Respublikası Prezidentinin digər fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Nazirliyin Kollegiya qərarlarını, əmək və əhalinin sosial müdafiəsi nazirinin (bundan sonra - Nazir) əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Nazirliyin Aparatının digər struktur bölmələri, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (bundan sonra – Nazirliyin struktur bölmələri), eləcə də mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## II. Şöbənin fəaliyyət istiqamətləri

2.1. Şöbənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. əhalinin sosial müdafiəsi sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasında və qanunvericiliyə uyğun olaraq həmin siyasətin həyata keçirilməsində iştirak etmək;

2.1.2. beynəlxalq təcrübədə mövcud olan müxtəlif sosial təminat proqramlarını öyrənmək və bu sahədə dövlət siyasətinin formalaşdırılması, islahatların aparılması və qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflər hazırlamaq;

2.1.3. Şöbənin fəaliyyət istiqamətlərinə dair məsələlər üzrə sosioloji tədqiqatların və sorğuların aparılması barədə təkliflər vermək və bu tədbirlərin keçirilməsi ilə əlaqədar aidiyyəti qurumların fəaliyyətini əlaqələndirmək;

2.1.4. sosial təminat məsələləri ilə bağlı monitorinq və qiymətləndirmənin aparılması məqsədilə təkliflər vermək;

2.1.5. Bu Əsasnamədə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

## III. Şöbənin vəzifələri

3.1. Şöbənin bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq əsas vəzifələri aşağıdakılardır:

3.1.1. fəaliyyət istiqamətləri üzrə qabaqcıl beynəlxalq təcrübəni və elmi-texniki nailiyyətləri öyrənməklə sosial yardım və sosial xidmətlə bağlı hüquqi aktların, o cümlədən, normativ hüquqi aktların layihələrini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək;

3.1.2. Şöbənin səlahiyyətlərinə aid olan sahələr, xüsusilə, əhalinin sosial təminatı və çətin həyat şəraitində olan şəxslərə sosial xidmətin göstərilməsi üzrə qanunvericiliyin təkmilləşdirilməsi ilə əlaqədar təkliflər vermək;

3.1.3. ehtiyac meyarının həddinin mərhələlərlə ölkə üzrə yaşayış minimumu səviyyəsinə çatdırılması, sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların məbləğlərinin artırılması üzrə təkliflər vermək;

3.1.4. aztəminatlı ailələrin sosial müdafiəsinin yaxşılaşdırılması, dövlət sosial təminat siyasətinin səmərəli həyata keçirilməsi üçün Şöbənin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

3.1.5. dövlət büdcəsinin vəsaiti hesabına ödənilən sosial müavinətlər sisteminin unifikasiyası və sadələşdirilməsi üzrə təkliflər vermək;

3.1.6. sosial təminat siyasətinin səmərəli həyata keçirilməsi məqsədilə sosial yardım və sosial xidmət siyasəti ilə məşğul olan mütəxəssislərin ixtisaslarının artırılması və təcrübə mübadiləsi üçün təkliflər hazırlamaq

3.1.7. öz səlahiyyətləri daxilində insan alveri qurbanlarına yardım mərkəzlərinin, yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələrinin, habelə yetkinlik yaşına çatmayanlara və onların ailələrinə sosial xidmət göstərən digər müəssisə və xidmətlərin fəaliyyətinə sosial reabilitasiyanın müasir metod və texnologiyalarının tətbiqi, eləcə də həmin müəssisə və xidmətlər şəbəkəsinin inkişafı üçün təkliflər vermək;

3.1.8. ahıllara, əlilliyi olan şəxslərə, sosial müdafiəyə ehtiyacı olanlara, habelə Nazirliyin tabeliyində olan sosal xidmət müəssisələrində yaşayan bu kateqoriyadan olan şəxslərə tibbi və sosial-məişət xidmətinin göstərilməsinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması üzrə təkliflər vermək;

3.1.9. şəhid ailəsi üzvlərinin və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial-məişət şəraitinin yaxşılaşdırılması və sanatoriya-kurort müalicəsinin təşkili ilə bağlı fəaliyyətin təkmilləşdirilməsinə dair təkliflər vermək;

3.1.10. müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş və digər imtiyazlı kateqoriyadan olan şəxslərin xüsusi nəqliyyat vasitələri ilə təmin edilməsi ilə bağlı fəaliyyətin təkmilləşdirilməsinə dair təkliflər vermək;

3.1.11. dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən sosial müavinət, ayrı-ayrı kateqoriya şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdləri və özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc əvəzində aylıq müavinət və başqa növ sosial təminat məsələləri ilə bağlı qanunvericiliyin düzgün tətbiqinə metodiki yardım göstərmək məqsədilə müvafiq izahatlar hazırlamaq və yaxud belə izahatların hazırlanmasında iştirak etmək;

3.1.12. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun baxılmasını təmin etmək;

3.1.13. öz səlahiyyətləri çərçivəsində Nazirliyin inkişaf konsepsiyasının (strateji planının) həyata keçirilməsini təmin etmək;

3.1.14. Şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları dövrlər üzrə hazırlamaq;

3.1.15. fəaliyyət istiqamətlərinə uyğun olaraq bu Əsasnamədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək;

## IV. Şöbənin hüquqları

4.1. Şöbə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:;

4.1.1. fəaliyyət istiqamətlərinə uyğun olaraq müvafiq orqanlara (qurumlara), həmçinin Nazirliyin struktur bölmələrinə sorğular vermək və həmin orqan (qurumlardan) müvafiq məlumatlar, o cümlədən sosial müdafiə ilə bağlı statistik məlumatlar almaq;

4.1.2. əhalinin sosial müdafiəsi problemlərinə dair respublikada keçirilən elmi-praktik konfranslarda, bu sahədə beynəlxalq normaların və təcrübənin öyrənilməsi məqsədilə beynəlxalq təşkilatlar və xarici ölkələrin aidiyyəti orqanları tərəfindən keçirilən tədris proqramlarında və seminarlarda iştirak etmək və təcrübə mübadiləsi aparılması barədə təkliflər vermək;

4.1.3. Şöbədə çalışan əməkdaşların peşəkarlıq səviyyəsinin və səriştəsinin artırılması məqsədilə onların müxtəlif təlim və akademik kurslarda iştirak etməsi üçün təkliflər vermək;

4.1.4. sosial yardım və sosial xidmət sahələrində təcrübə mübadiləsi məqsədi ilə digər dövlətlərin aidiyyəti qurumları ilə əməkdaşlıq etmək və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

4.1.5. Nazirlikdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Nazirliyi təmsil etmək;

4.1.6. Nazirliyin struktur bölmələrinə sosial yardım və sosial xidmət üzrə əməli və metodik tövsiyələr vermək;

4.1.7. fəaliyyət istiqamətlərinə uyğun olaraq bu Əsasnamədə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## V. Şöbənin fəaliyyətinin təşkili

5.1. Şöbənin strukturu və əməkdaşlarının sayı Nazir tərəfindən müəyyən və təsdiq edilir. Şöbə bilavasitə Nazirə tabedir və onun qarşısında hesabat verir. Nazir tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla, heç kəs Şöbənin fəaliyyətinə müdaxilə edə bilməz.

5.2. Şöbənin strukturuna Dövlət sosial yardım siyasəti, Dövlət sosial xidmət siyasəti və Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərlə iş sektorları daxildir.

5.3. Şöbənin fəaliyyətinə Nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (şöbə müdiri) rəhbərlik edir. Şöbə müdiri Şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Şöbə müdiri:

5.4.1. Şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.4.2. tabeliyində olan sektorlar və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət edilməsinə nəzarət edir;

5.4.3. Şöbəyə həvalə edilmiş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə icra edilməsinə nəzarət edir;

5.4.4. Şöbə üzrə Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələləri müəyyən edir və bu barədə təkliflərini Nazirliyin rəhbərliyinə təqdim edir, Şöbə tərəfindən bu Əsasnamənin 1.2-ci bəndində göstərilən hüquqi aktların vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.4.5. Şöbənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərin görülməsi üçün Nazirliyin rəhbərliyinə təqdimatlar verir;

5.4.6. Şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Nazirliyin struktur bölmələrindən zəruri məlumat və sənədləri alır;

5.4.7. Şöbəyə daxil olan müraciətlərə (ərizə, şikayət və təklif) qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.4.8. Şöbədə kargüzarlığın aparılmasını və məxfilik rejimini təmin edir;

5.4.9. Şöbənin inzibati vəzifə tutan dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsini həyata keçirir;

5.4.10. Şöbənin fəaliyyəti barədə Nazirə hesabat verir;

5.4.11. Şöbənin əməkdaşlarının ixtisasının artırılması və əmək şəraitinin yaxşılaşdırılması üçün müvafiq tədbirləri həyata keçirir;

5.4.12. Nazirin tapşırığı ilə tədbirlərdə Nazirliyi təmsil edir.

5.5. Şöbə müdirinin Nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini (müavinləri) vardır.

5.6. Şöbə müdirinin müavini Şöbə müdiri tərəfindən həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.7. Şöbə müdiri olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada Şöbə müdirinin müavini həyata keçirir.

5.8. Şöbənin digər əməkdaşları Nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.9. Şöbənin əməkdaşları onlara tapşırılmış işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə və bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

## VI. Şöbənin strukturuna daxil olan sektorların vəzifələri

### 6.1. Dövlət sosial yardım siyasəti sektorunun vəzifələri aşağıdakılardır:

6.1.1. ehtiyac meyarının həddinin mərhələlərlə ölkə üzrə yaşayış minimumu səviyyəsinə çatdırılması, sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların məbləğlərinin artırılması təkliflər vermək;

6.1.2. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə Şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair təkliflər vermək;

6.1.3. dövlət büdcəsinin vəsaiti hesabına ödənilən sosial müavinətlər sisteminin unifikasiyası və sadələşdirilməsi üzrə təkliflər vermək;

6.1.4. sosial yardım və sosial xidmətlə bağlı qabaqcıl təcrübəni

6.1.5. öyrənməklə normativ hüquqi sənədləri hazırlaması və təkmilləşdirikməsində iştirak etmək;

6.1.6. uyğun sosial yardım mexanizminin təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq;

6.1.7. dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən sosial müavinət, ayrı-ayrı kateqoriya şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdləri və özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc əvəzində aylıq müavinət və başqa növ sosial təminat məsələləri ilə bağlı qanunvericiliyin düzgün tətbiqinə metodiki yardım göstərmək məqsədilə müvafiq izahatlar hazırlamaq və yaxud belə izahatların hazırlanmasında iştirak etmək;

6.1.8. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliklə müəyyən olunmuş qaydada və müddətdə baxılmasını təmin etmək;

6.1.9. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**6.2. Dövlət sosial xidmət siyasəti sektorunun vəzifələri aşağıdakılardır:**

6.2.1. ahıllara, əlilliyi olan şəxslərə, məişət zorakılığı və insan alveri qurbanlarına, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərə, sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlara və sosial müdafiəyə ehtiyacı olanlara sosial xidmət sahəsində qanunvericiliyin təkmilləşdirilməsi və institusional bazanın gücləndirilməsi məqsədilə mütərəqqi beynəlxalq təcrübəni öyrənmək və tətbiqi imkanlarını araşdırmaq;

6.2.2. ahıllara, əlilliyi olan şəxslərə, digər sosial müdafiəyə ehtiyacı olanlara, habelə Nazirliyin tabeliyində olan sosial xidmət müəssisələrində yaşayan bu kateqoriyadan olan şəxslərə tibbi və sosial-məişət xidmətinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması üzrə təkliflər vermək;

6.2.3. öz səlahiyyətləri daxilində yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələrinin, habelə yetkinlik yaşına çatmayanlara və onların ailələrinə sosial xidmət göstərən digər müəssisə və xidmətlərin fəaliyyətinə sosial reabilitasiyanın müasir metod və texnologiyalarının tətbiqi, eləcə də həmin müəssisə və xidmətlər şəbəkəsinin inkişafı üçün təkliflər vermək;

6.2.4. qanunvericiliyə uyğun olaraq, məişət zorakılığı və insan alveri qurbanlarının sosial reabilitasiyasının təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq;

6.2.5. penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası tədbirlərinin həyata keçirilməsi və təkmilləşdirilməsi ilə əlaqədar aidiyyəti üzrə təkliflər hazırlamaq;

6.2.6. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə Şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair təkliflər vermək;

6.2.7. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**6.3. Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərlə iş sektorunun vəzifələri aşağıdakılardır:**

6.3.1. şəhid ailəsi üzvlərinin və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin müraciətlərini araşdıraraq müvafiq təkliflər vermək;

6.3.2. şəhid ailəsi üzvlərinin və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı fəaliyyətin təkmilləşdirilməsinə dair təkliflər vermək;

6.3.3. müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş və digər imtiyazlı kateqoriyadan olan şəxslərin xüsusi nəqliyyat vasitələri ilə təmin edilməsi ilə bağlı fəaliyyətin təkmilləşdirilməsinə dair təkliflər vermək;

6.3.4. şəhid ailəsi üzvlərinin və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sanatoriya-kurort müalicəsinin təşkili ilə bağlı fəaliyyətin təkmilləşdirilməsinə dair təkliflər vermək;

6.3.5. müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə sosial xidmətlərin göstərilməsi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi və institusional bazanın gücləndirilməsi məqsədilə mütərəqqi beynəlxalq təcrübəni öyrənmək və tətbiqi imkanlarını araşdırmaq;

6.3.6. müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial reabilitasiyası sahəsində müasir metod və texnologiyaların tətbiqi və reabilitasiya müəssisələrinin şəbəkəsinin inkişafı ilə bağlı təkliflər vermək;

6.3.7. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə Şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair təkliflər vermək;

6.3.8. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliklə müəyyən olunmuş qaydada və müddətdə baxılmasını təmin etmək;

6.3.9. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.